# 38 İL ƏVVƏL

***Sabirabad rayon Ü.Hacıbəyov adına yeddillik uşaq musiqi məktəbi 1967-ci ildə yaradılmışdır. O vaxtlar məktəbdə 2 şöbə (fortepiano və tar) fəaliyyət göstərirdi, şagirdlərin musiqi təhsili ilə 4 nəfər müəllim məşğul olurdu. Onlardan biri də mən idim.***

Mən Ağdam rayonunun Ü.Hacıbəyov adına orta ixtisas musiqi məktəbini bitirib, Mədəniyyət Nazirliyinin təyinatı əsasında Sabirabad rayon yeddillik uşaq musiqi məktəbinə fortepiano müəlliməsi gəlmişəm. 1979-cü ildən Sabirabad rayon 7-illik uşaq musiqi məktəbinə rəhbərlik edirəm.

Hal-hazırda məktəbdə 402 nəfər şagird təhsil alır. Fortepiano, tar, kamança, qarmon, xanəndəlik və nağara şöbələri fəaliyyət göstərir.

Şagirdlərin musiqi təhsili ilə 40 nəfər müəllim məşğul olur. Onlardan 3 nəfəri ali, 30 nəfəri orta ixtisas, 7 nəfəri isə ümumi orta təhsillidir.

2003/2004-cü tədris ilində məktəbi 58 nəfər şagird bitirmişdir. 2004/2005-ci tədris ilində məktəbə 72 nəfər şagird qəbul edilmişdir.

Musiqi məktəbinin müəllim və şagirdlərindən ibarət ansambl kollektivinin rayon əhəmiyyətli kütləvi tədbirlərdə çıxışları şagird qəbuluna müsbət təsirini göstərmişdir. Məktəbin şagirdlərindən ibarət ansamblı, qarmon çalanlar və nağara çalanlar ansamblları var. Məktəbdə bəstəkarlarımızın yubiley tədbirlərinin keçirilməsi, 31 dekabr Azərbaycanlıların Beynəlxalq Həmrəyliyi günü, 20 Yanvar şəhidləri, Xocalı faciəsinin ildönümü, 8 mart qadınlar bayramı, Novruz bayramı, Azərbaycan Xalq Cumhuriyyəti, 1 iyun Beynəlxalq uşaq günü, müəllimlər günü və s. tədbirləri keçiririk.

Rayonda və respublikada keçirilən müsabiqələrdə şagirdlərimiz həvəslə yaxından iştirak edirlər. Onlardan Tural Heydərov, Faiq Hüseynov, Elşad Abışov müxtəlif mükafatlara layiq görülmüşlər.

Məktəbin xor kollektivi zona müsabiqələrində yaxından iştirak edir. Qazanılan nailiyyətlərdə müəllimlərin də zəhməti az olmamışdır. Məktəbin fəal müəllimlərindən fortepiano müəlliməsi Aytəkin Əliyeva, Səkinə Şıxəliyeva, Elmira Vəliyeva, Ceyran Xəlilova, Aynur Rəhimova, Aynur Əliyeva, tar müəlimlərindən Arif Əsgərov, Nəbi Nəbiyev, səs müəllimlərindən Süleyman Ağayev, Ramiz Soltanov, qarmon müəllimlərindən Sevda Əliyeva, Vaqif Güləliyev və Əli Bədəlovu göstərmək olar.

Məktəbimizin məzunlarından 20 nəfəri respublikanın müxtəlif ali və orta ixtisas musiqi məktəblərində təhsillərini davam etdirir. Hazırda A. Zeynallı adına orta ixtisas musiqi məktəbində məzunlarımızdan Sevinc Vəliyeva, Ramil Məmmədov təhsil alırlar. Şuşa və Sumqayıt orta ixtisas musiqi məktəblərində məzunlarımız təhsillərini davam etdirirlər. Məktəbimizin məzunu Ramiz Əzizov Bakı Milli Musiqi Akademiyasını bitirmiş və hazırda orada çalışır.

*Müəllimlərimiz çalışırlar ki, Mədəniyyət Nazirliyi tərəfindən təsdiq olunmuş əsasnaməni, tədris planlarını, proqramlarını əldə rəhbər tutaraq tədris prosesini məqsədyönlü qursunlar.*

**Əfiqə Həsənova,**
**Sabirabad rayon uşaq-musiqi məktəbinin direktoru**



